Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“07” mart 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 11

**AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ MALİYYƏ MONİTORİNQİ ÜZRƏ SİYASƏT VƏ TƏNZİMLƏNMƏ DEPARTAMENTİ HAQQINDA**

**Ə S A S N A M Ə**

**BAKI – 2024**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Maliyyə monitorinqi üzrə siyasət və tənzimlənmə departamenti (bundan sonra – Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra – Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında", "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, İdarə Heyətinin və daxili komitələrin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri ilə fəaliyyətini əlaqələndirir.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarına müvafiq olaraq Mərkəzi Bankın səlahiyyətləri daxilində maliyyə institutları üzrə sahəvi risklərin təhlili, onun nəticələri əsasında siyasətin müəyyən edilməsi, habelə ətraflı və risk əsaslı tənzimlənmə və nəzarət çərçivəsinin formalaşdırılmasından ibarətdir.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. maliyyə institutlarının cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsi (ƏL/TM/KM) risklərinin müəyyən edilməsi, qiymətləndirilməsi, nəticələrinin maliyyə institutlarına və Mərkəzi Bankın aidiyyəti struktur bölmələrinə təqdim edilməsi;

3.2. cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TM/KMM) sahəsi üzrə Mərkəzi Bankın tənzimlənmə və nəzarət siyasətinin müəyyən edilməsi;

3.3. ƏL/TM/KMM sahəsi üzrə Mərkəzi Bankın analitik hesabatlarının və materiallarının hazırlanması, onların Mərkəzi Bankın rəhbərliyinə və aidiyyəti struktur bölmələrinə təqdim edilməsi;

3.4. risk əsaslı nəzarətin tətbiqi üçün müvafiq informasiya və hesabatlıq sisteminin formalaşdırılması, o cümlədən ƏL/TM/KMM üzrə nəzarət informasiya sistemləri (SupTech) alətlərinin tətbiqinin təmin edilməsində iştirak edilməsi;

3.5. maliyyə bazarlarında ƏL/TM/KMM üzrə vahid siyasətin formalaşdırılmasında, o cümlədən ƏL/TM/KMM üzrə nəzarət sahəsində dövlət proqramlarının (milli fəaliyyət planlarının) hazırlanmasında və icrasında, bu sahənin inkişafına yönəlmiş dövlət və beynəlxalq tədbirlərin həyata keçirilməsində, ölkənin ƏL/TM/KMM sisteminin milli və beynəlxalq səviyyələrdə qiymətləndirilməsi proseslərində, habelə müvafiq işçi qruplarında iştirak edilməsi, maliyyə monitorinqi orqanı, digər səlahiyyətli qurumlar, habelə xarici dövlətlərin nəzarət orqanları və beynəlxalq təşkilatlarla əməkdaşlığın həyata keçirilməsi;

3.6. maliyyə institutları və nəzarət məqsədləri üçün ƏL/TM/KMM sahəsi üzrə metodiki materialların hazırlanması, maliyyə institutlarına və Mərkəzi Bankın əlaqədar funksional bölmələrinə ƏL/TM/KMM üzrə metodiki dəstək göstərilməsi, Mərkəzi Bankın fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq hüquqi aktlara və metodoloji sənədlərə aidiyyəti üzrə rəy və təkliflərin verilməsi;

3.7. Departamentin vəzifələrinin icrası ilə əlaqədar Mərkəzi Bankın struktur bölmələri ilə koordinasiyanın həyata keçirilməsi, onlara sorğu verilməsi və onlardan məlumatların (sənədlərin) alınması, zəruri məlumatların (sənədlərin) əldə edilməsi məqsədilə dövlət orqanlarına (qurumlarına) və maliyyə institutlarına sorğuların hazırlanması;

3.8. Departamentin fəaliyyət istiqamətləri üzrə Mərkəzi Bankın aldığı texniki yardım layihələrində iştirak edilməsi;

3.9. ƏL/TM/KMM sahəsində keçirilən konfranslarda, seminarlarda, forumlarda, treninqlərdə və digər tədbirlərdə iştirak edilməsi;

3.10. Departamentin fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilən işin, o cümlədən ƏL/TM/KMM sahəsində nəzarət və yoxlama proseslərinin təkmilləşdirilməsinə dair təkliflərin verilməsi;

3.11. Departamentin büdcə layihəsinin hazırlanması və icrasının təmin edilməsi;

3.12. Departamentə daxil olan müraciətlərə baxılması, sorğu və məktublara cavabların hazırlanması;

3.13. rəhbərliyin tapşırığına uyğun olaraq Departamentin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı şöbələrdən ibarətdir:

4.1.1. Tənzimlənmə və əməkdaşlıq şöbəsi;

4.1.2. Sahəvi risklərin təhlili və informasiya dəstəyi şöbəsi.

4.2. Departamentin fəaliyyətinə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətlərini direktor müavini (olduqda) həyata keçirir, bu şərtlə ki, rəhbərlik tərəfindən direktor vəzifəsinin icrası şöbə rəislərindən birinə və ya digər şəxsə həvalə edilməsin.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən və ya İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin edilir və vəzifədən azad olunurlar.

## 5. DEPARTAMENTİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

5.1. **Tənzimlənmə və əməkdaşlıq şöbəsi :**

5.1.1. Mərkəzi Bankın ƏL/TM/KMM sahəsi üzrə tənzimlənmə və nəzarət siyasətini formalaşdırır;

5.1.2. ƏL/TM/KMM üzrə nəzarət sahəsində dövlət proqramlarının (milli fəaliyyət planlarının) hazırlanmasında və icrasında, bu sahənin inkişafına yönəlmiş dövlət və beynəlxalq proqramların həyata keçirilməsində, ölkənin ƏL/TM/KMM sisteminin milli və beynəlxalq səviyyələrdə qiymətləndirilməsi proseslərində, habelə müvafiq işçi qruplarında iştirak edir, maliyyə monitorinqi orqanı, digər səlahiyyətli qurumlar, habelə xarici dövlətlərin nəzarət orqanları və beynəlxalq təşkilatlarla əməkdaşlığı həyata keçirir;

5.1.3. Mərkəzi Bankın ƏL/TM/KMM sahəsi üzrə nəzarət siyasətinə və bu sahə üzrə qabaqcıl beynəlxalq təcrübə və standartlara uyğun olaraq maliyyə institutlarına münasibətdə maliyyə monitorinqi orqanının müəyyən etdiyi daxili nəzarət proqramına dair minimum tələblərdən əlavə tələbləri müəyyən edir, eləcə də bu istiqamət üzrə metodoloji bazanı hazırlayır və təkmilləşdirir;

5.1.4. ƏL/TM/KMM sahəsi və nəzarət məqsədləri üçün metodiki materialları hazırlayır, maliyyə institutlarına və Mərkəzi Bankın əlaqədar funksional bölmələrinə ƏL/TM/KMM üzrə metodiki dəstək göstərir, Mərkəzi Bankın fəaliyyət istiqamətlərinə

uyğun olaraq müvafiq hüquqi aktlara və metodoloji sənədlərə aidiyyəti üzrə rəy və təkliflər verir;

5.1.5. Mərkəzi Bankın ƏL/TM/KMM üzrə nəzarət strategiyasını formalaşdırır, Departamentin büdcə layihəsini hazırlayır, təsdiq edilmiş planın icrasına nəzarət edir, planın icrasına dair məlumatı rəhbərliyə təqdim edir;

5.1.6. Departamentin vəzifələrinin icrası ilə əlaqədar səlahiyyətləri daxilində Mərkəzi Bankın struktur bölmələrinə sorğu verir və onlardan məlumatları (sənədləri) alır, zəruri məlumatların (sənədlərin) əldə edilməsi məqsədilə dövlət orqanlarına (qurumlarına) və maliyyə institutlarına sorğuları hazırlayır;

5.1.7. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

5.2. **Sahəvi risklərin təhlili və informasiya dəstəyi şöbəsi**:

5.2.1. maliyyə institutlarına münasibətdə ƏL/TM/KM risklərini qiymətləndirir, bu məqsədlə maliyyə institutlarına məxsus və digər mənbəyi məlum olan məlumatları toplayır, emal edir, təhlil edir, müvafiq hesabatları hazırlayır, eləcə də ƏL/TM/KM risklərinin azalmasına istiqamətlənən müvafiq tədbirlərin həyata keçirilməsinə dair təkliflər verir;

5.2.2. ƏL/TM/KMM sahələri üzrə analitik hesabatları və materialları hazırlayır, onları Mərkəzi Bankın rəhbərliyinə və aidiyyəti struktur bölmələrinə təqdim edir;

5.2.3. risk əsaslı nəzarətin tətbiqi üçün müvafiq informasiya və hesabatlıq sistemini formalaşdırır və əməliyyat inzibatçılığını həyata keçirir, habelə ƏL/TM/KMM üzrə nəzarət informasiya sistemləri (SupTech) alətlərinin tətbiqini təmin edir;

5.2.4. Bu Əsasnamənin 5.1.6 və 5.1.7-ci bəndlərində göstərilmiş vəzifələri icra edir.

## 6. YEKUN MÜDDƏA

Bu Əsasnamə təsdiq olunduğu gündən qüvvəyə minir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**